Güləndam Şahiddin qızı İsmayılova
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
E-mail: ismayilovagulendam@gmail.com
UOT: 334.716.4; JEL: L60; L69; L78

Neft emalı sənayesinin inkişaf etdirilməsində beynəlxalq təcrübənin aktual aspektləri

Xülasə

Məqalədə neft emalı sənayesinin inkişaf etdirilməsində beynəlxalq təcrübənin aktual aspektlərinə baxılmış və bununla bağlı mühüm məsələlər araşdırılmışdır. Müxtəlif dünya ölkələrində neft emalı sənayesinin təşkili və piroritet fəaliyyət istiqamətləri təhlil edilmiş və problemlər açıqlanmış, fəaliyyət strategiyaları, tətbiq olunan mexanizmlər ümumiləşdirilmişdir. Dünya ölkələrində səmərəli neft emalı sənayesi modellərinin müxtəlif nümunələri haqqında araşdırmalar aparılmış və eyni zamanda səmərəli fəaliyyət istiqamətləri göstərilmişdir. Neft xammalından maksimum rasional istifadə etməklə rəqabət qabiliyyətli neft emalı müəssisələrinin yaradılmasının piroritetliyi əsaslandırılmışdır. Tədqiqatın metodologiyası əsasən məlum iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, ümumiləşdirmə və bir sıra ölkələrdə olan yanaşmalar, metodoloji üslublar, bu istiqamətdə aparılan tədqiqatlarda ortaya qoyulan müddəalar və tədqiqatçıların mülahizələri əsas götürülmüşdür. Baxılam problemlər üzrə dünya səviyyəsində aparılan tədqiqatların müəyyən nəticələrinə də istinad olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti burada əsas arqumentlər kimi Azərbaycan neft ölkəsi olduğundan yaxın perspektivdə neft emalı sənayesi sahələrinin inkişaf etdirilməsində dünya təcrübəsində daha dərindən örgənilməsi və bununla bağlı mütərəqqi fəaliyyət istiqamətlərinin müsbət cəhətlərini tətbiqi istiqamətində tədbirlərin görülməsi vacibdir. Tətqiqatın nəticələri müasir dövrdə Azərbaycanda qeyri-neft sektorunun piroritetliyi və milli iqtisadiyyatın sturukturunun təkmilləşdirilməsində daha məhsuldar əlavə dəyər mənbələrinə və ixrac potensialına malik olan sahələrin inkişaf etdirilməsi nöqteyi-nəzərindən neft emalı sahəsinin inkişaf etdirilməsi, bu sahədə rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması proseslərində səmərə vermək imkanına malikdir. Tədqiqatın orjinallığı və elmi yeniliyi baxımından, qeyd etmək istərdik ki, müasir çağırışlar şəraitində, o cümlədən Covid-19 pandemiyasından sonra yaranan yeni bir şəraitdə iqtisadiyyatının sturukturunun təkmilləşdirilməsi, yeni iqtisadi inkişaf drayverlərinin nəzərə alınması və bununla bağlı zəruri tədbirlərin görülməsi istiqamətində konseptual baxışlar formalaşdırılmışdır. Əsas elmi yenilik isə bu sahədə Azərbaycanda mövcud potensialın dərindən örgənilməsinin vacibliyi və müasir tələblərə cavab verən rəqabət qabiliyyətli neft emalı sənayesi müəssisələr şəbəkəsinin yaradılmasının zəruriliyi elmi arqumentlərlə verilmişdir. Yaxın perspektivdə Azərbaycanda neft emalı sənayesinin inkişaf etdirilməsi üzrə bir sıra təkliflər hazırlanmış və tövsiyyələr verilmişdir.

Açar sözlər: *neft emalı sənayesi, beynəlxalq təcrübə, beynəlxalq təcrübənin aktual aspektləri, neft emalı sənayesinin inkişaf perspektivləri, neft emalı sənayesinin inkişaf problemləri, neft emalı sənayesinin inkişafı üzrə dünya ölkələrinin təcrübəsi.*

Giriş

Qeyd edək ki, neft dünya iqtisadiyyatının və beynəlxalq ticarətin inkişafında həmişə mühüm rol oynamışdır. Neft emalı sənayesi ölkənin sosial-iqtisadi inkişafının ən mühüm tərkib hissəsidir və iqtisadiyyatın digər sahələri və sektorları ilə bütün müxtəlif əlaqələrə malikdir. Bir çox ölkələrdə büdcənin əhəmiyyətli bir hissəsini neft emalı sənayesi tutur. Gəlirləri daha çox dünya neft bazarının inkişaf tendensiyalarından asılıdır. Neft emalı sənayesi yüksək kapital tutumu və strateji əhəmiyyəti ilə xarakterizə olunan qlobal yanacaq-

energetika kompleksinin ən mühüm sahəsidir. Neft emalı sənayesi ölkə iqtisadiyyatının enerji təchizatı sisteminin mühüm elementi və neftin neft məhsullarına emalı yolu ilə daxili bazarda istifadəsinin əsas istiqamətidir. Neft emalı sənayesinin məhsulları ilkin enerji tələbatının ödənilməsinə xidmət edir, elektrik və istilik enerjisi istehsalı və nəqliyyat sektorunda motor yanacağı, habelə neft-kimya sənayesi üçün xammal kimi çıxış edir. Müasir dövrdə neft emalı sənayesi nəzərəçarpacaq dəyişikliklərlə səciyyələnir. Dünyada neft emalı sənayesində baş verən dəyişikliklərin əsas şərtləri regional iqtisadi artım amilləri, neft emalı müəssisələrinin istehsal prosesləri, onların məhsulları üçün ekoloji tələblərin sərtləşdirilməsi tədbirlərinin tətbiqi və digər xüsusiyyətlərdir. Məlumdur ki, neft emalı müəssisələri mülkiyyət formasına görə, dövlət, özəl və dövlət-özəl mülkiyyətli ola bilər. İqtisadi formaya görə neft-qaz sektoruna aid olan müəssisələr dövlət və özəl sektora aid edilə bilər. Dövlət mülkiyyəti əsasında fəaliyyət göstərənlərə Səudiyyə Ərəbistanı, İranı, özəl mülkiyyət əsasında fəaliyyət göstərənlərə ABŞ-ı, Böyük Britaniyanı, həm dövlət, həm də özəl əsaslarla fəaliyyət göstərənlərə isə Rusiyanı, Küveyti və digərlərini aid edə bilərik. Reallıq həm də ayrı-ayrı ölkələrin neft emalı sənayesində qarışıq mülkiyyətə malik müəssisələrin olmasıdır. Bu, səhmdar cəmiyyətləri və birgə müəssisələr vasitəsilə birbaşa investisiya və ya portfel investisiyası şəklində həyata keçirilir [1, s.54]. Azərbaycanın neft emalı sənayesi bu baxımdan istisna deyildir.

Müxtəlif dünya ölkələrində neft emalı sənayesinin inkişaf etdirilməsi təcrübəsinin təhlili

İnkişaf etməkdə olan ölkələrdə neft emalı sənayesi hökumətin iqtisadi siyasətinin əsasını təşkil edən prioritet istiqamətlərdəndir. Məsələn, bu sahədə Hindistan və Çinin neft xammalın rüsumsuz idxalını və şirkətlər üçün vergi tətillərini nəzərdə tutan siyasəti diqqətəlayiqdir. İnkişaf etmiş ölkələr demək olar ki, neft məhsullarının istehlakında pik həddinə çatıb və onların avtomobil bazarları doyma mərhələsindədirlər. Eyni zamanda, nəqliyyatın yanacaq sərfinin səmərəliliyinin artması emal olunmuş məhsulların istehlakının artımını məhdudlaşdıracaq [2, s.6]. ABŞ-ın neft emalı sənayesi çox yüksək səviyyədə inkişaf etmişdir. ABŞ dünyanın ən böyük neft məhsulları istehsalçılarından və istehlakçılarından biridir. ABŞ-da həmin məhsulların aşağı qiyməti inkişaf etmiş magistral boru kəmərləri şəbəkəsi, neft məhsullarının daşınmasının qiymətini aşağı salan avtomobil nəqliyyatı, bazarda yüksək rəqabət, neft emalı müəssisələrinin təmərküzləşməsi və bu sahədə dövlət siyasətinin effektivliyi ilə izah edilə bilər. Açıq və tünd neft məhsullarının əsas istehsalçısı kimi ABŞ dünya neft emalının ümumi həcminin təxminən 24%-ni istehsal edir. Həmin məhsullara bunlar daxildir: müxtəlif yanacaq növləri; sürtkü yağları; neft-kimya xammalı və həlledicilər ABŞ-ın əsas neft şirkətlərinə isə bunları aid etmək olar:

"Exxon Mobil Corporation" dünyanın ən böyük neft şirkəti və ən böyük korporasiyalarından biridir. Onun fəaliyyəti əsasən dünyanın müxtəlif regionlarında, o cümlədən ABŞ, Kanada, Yaxın Şərqdə neft hasilatı ilə bağlıdır. 2020-ci ildə işçilərin ümumi sayı 82 min nəfər olmuşdur. Təsdiqlənmiş neft ehtiyatları 22,4 milyard barel təşkil etmişdir. Dünyada COVİD-19 pandemiyasının ən böyük zərər vurduğu şirkətlərdən biri məhz həmin korporasiyadır. 2020-ci ildə şirkətdə zərərin miqdarı 22,4 milyard dollar olmuşdur. Lakin 2019-cu ildə 14,3 milyard dollar gəlirlə işləmişdir [3].

ABŞ-ın inteqrasiya olunmuş enerji şirkəti "Chevron Corporation" dünyanın ən böyük korporasiyalarından biridir. Şirkət 1879-cu ildə Piko Kanyonunda (Kaliforniya) yaradılmışdır. "Chevron Corporation"da çoxlu neft emalı müəssisələri və geniş yanacaqdoldurma məntəqələri şəbəkəsi var. Təsdiqlənmiş neft ehtiyatları 13 milyard barel təşkil etmişdir.

Transmilli neft və kimya şirkəti "Amoco Corporation" dünyanın ən böyük neft və qaz istehsalçılarından biridir. "Amoco Corporation" qlobal şəbəkəyə malikdir və bütün dünyada şirkətin 42000 işçisi çalışır. Satış həcmi 21,2 milyard dollar, neft hasilatı 40 milyon tondur ki, bunun da 45%-i ABŞ-dadır [4, s.568].

Qeyd edək ki, neft emalı sahəsində konsentrasiyanın artması qlobal prosesin tərkib hissəsidir. Yeni fabriklərin yaranması, mövcud güclərin inkişafı, köhnə texnologiyaların və kiçik müəssisələrin nisbətən də olsa məhdudlaşdırılması təkcə ABŞ-da deyil, bütün dünyada baş verir. Dünya səhnəsinə yeni oyunçular çıxır. Xatırladaq ki, öz xammalının kəskin çatışmazlığı şəraitində Yaponiya supertankerlər yaratmışdı. Neftin satışından külli miqdarda qazanan OPEK ölkələri özlərinin inteqrasiya olunmuş şirkətlərinin yaradılmasına sərmayə qoyurlar. Nəzərə almaq lazımdır ki, onlar bunu etməyə məcburdurlar. Çünki onların əslində neftdən başqa təbii sərvətləri yoxdur və neft ehtiyatları sonda tükənəcək. Buna görə də, onlar eyni zamanda gələcək üçün yeni infrastrukturların təməlini qoyurlar. Bir çox hallarda, bu, artıq öz bəhrəsini verir. Məsələn, bunlar turizm biznesinə böyük investisiyalar qoyurlar. Eyni zamanda, bu ölkələr öz neftini neft emalı məhsullarına, yəni daha yüksək qiymətə malik mallara çevirməklə özlərinə yeni dəyər yaradırlar [5, s.42]. OPEK ölkələri ilə yanaşı, Hindistan və Çində də bu proseslər fəal şəkildə inkişaf edir. Məlumdur ki, Avropa və ABŞ-ın neft emalı müəssisələri açıq neft məhsullarının məhsuldarlığına görə bir qədər fərqlənirlər. Yəni, ABŞ və Avropanın neft emalı müəssisələri yüngül neft məhsullarının istehsalı baxımından ixtisaslaşmasına görə fərqlənirlər. ABŞ neft emalı müəssisələri əsasən benzin istehsal edir, Qərbi Avropadakı neft emalı müəssisələri isə dizel yanacağına üstünlük verir.

İndi isə iki bölgənin ixtisaslaşması ilə bağlı vəziyyəti daha ətraflı nəzərdən keçirək. Aİ ölkələri böyük həcmdə dizel yanacağı istehlak edərkən benzin ixrac edir. Məsələ burasındadır ki, Aİ-də tarixən dizel yanacağından istifadənin daha əlverişli olduğu bir vəziyyət olub. ABŞ-da, daxili yanma mühərriki (ICE) olan avtomobillər, Avropada isə dizel avtomobilləri geniş istifadə olunur. ABŞ-da böyük həcmdə dizel yanacağı sonrakı emal üçün göndərilir. Aİ ölkələrində benzinə vergilər dizel yanacağına nisbətən daha yüksəkdir. Buna görə də, Avropa avtomobil müəssisələri dizel mühərriklərinin layihəsini təkmilləşdirməyə davam edir və bu regionun ölkələri dizel yanacağını idxal edir və benzin və onun bəzi fraksiyalarını isə ixrac edir. Bundan əlavə, ABŞ marketinq siyasətində dünyada dizel yanacağına tələbatın durmadan artmasına diqqət yetirir ki, bu da onları öz ixracını artırmağa sövq edir. Təbii ki, ABŞ və Avropanın neft emalı müəssisələrində neft məhsulları istehsalının strukturu fərqlənir (ABŞ-da xammal baxımından benzin istehsalı neft məhsullarının istehsalının 37%-ni, Avropada isə cəmi 15%-ni təşkil edir). Digər tərəfdən, Avropa müəssisələrində kifayət qədər böyük hidrokrekinq imkanları yaradılmışdır ki, bu da avtomobillər üçün nəzərdə tutulmuş yüksək keyfiyyətli dizel yanacağı istehsal etməyə imkan verir. Yalnız son on ildə hidrokrekinq imkanları 60% artıb. Xarici ekspertlərin fikrincə, yaxın illərdə birdən-birə avtomobillər üçün dizel yanacağı istehsalı imkanlarının artırılması zərurəti yaranarsa, 0,5-1 milyard dollar həcmində sərmayə lazım olacaq və bu, 5-10 il vaxt aparacaq. Bu müddət ərzində müvafiq neft emalı müəssisələrinin yenidən layihələndirilməsi zərurəti yaranacaq.

Son illərdə beynəlxalq təcrübədə neft emalı müəssisələrində xammal tədarükünü proqnozlaşdırmaq üçün çoxlu sayda riyazi modellərdən istifadə edilmişdir. Lakin ən uyğun olanı, indiyə qədər istifadə edilən neft emalı müəssisələrində enerji təchiz etmək üçün istifadə edilən neft modeli (OURSE) olmuşdur. Bu model əsasında 5% daxilində faktiki olandan fərqli olan proqnozlaşdırıcı nəticə əldə etmək mümkündür. Beynəlxalq Enerji Agentliyinin (BEA) proqnozlarına əsasən, 2030-cu ilədək dünyanın bütün neft emalı müəssisələrinə

xammal tədarükü sutkada 95 milyon barel (ildə 4,75 milyard ton) təşkil edəcək. Bu həcmin strukturunda neft 3,83 milyard ton, qaz kondensatı 0,5 milyard ton, yeni mənbələr 0,42 milyard ton təşkil edəcək. 2030-cu ilədək neft məhsullarına tələbatın 4,3 milyard tona qədər artacağı proqnozlaşdırılır və tələbatın əsas artımı Asiya, Latın Amerikası və Afrikadan (ümumi tələbatın təxminən 50%-i) olacaq. Avropada tələbin azalması 12%, Şimali Amerikada isə 5% olacaq. Çinin neft məhsulları istehsalı üzrə dünya lideri olacaq. Eyni zamanda istehsalın strukturunda ciddi dəyişikliklər baş verəcək. Belə ki, 2030-cu ilədək ABŞ-da çatdırılması planlaşdırılan neft məhsullarının ümumi həcmində benzinin payı 45%, dizel yanacağının payı isə 42%-i olacaq. OURSE modelinə əsasən, Avropada neft məhsulları istehsalı strukturunda dizel yanacağının və benzinin payı müvafiq olaraq 50 və 25% səviyyəsində qalacaq [6, s. 50]. Sandia laboratoriyası və General Motors korporasiyası birgə araşdırmalarında belə qənaətə gəliblər ki, 2030-cu ilə qədər ABŞ-da istehsal olunan benzinin üçdə biri bioyanacaqla əvəzlənəcək. Bununla belə, nəzərə almaq lazımdır ki, bioyanacaq bazarının intensiv inkişafı hələ də iqtisadi baxımdan məqsədəuyğun deyil. Çünki bir çox ölkələrdə ona dövlət dəstəyinin müəyyən alətləri yoxdur. Məsələn, Rusiyada bioyanacaq istehsalının maya dəyəri benzininkindən iki dəfə yüksəkdir. Bioyanacaqlara tələbatın xarici qiymətləndirmələrinin təhlili göstərir ki: hazırda mövcud olan bioyanacaq istehsal gücləri (həm biodizel, həm də bioetanol) əsas ölkələrdə yanacağa olan tələbatı ödəyə bilmir; hazırda bioyanacaqların geniş istehsalının inkişafına təkan verəcək tədbirlər kompleksi hələ işlənməmişdir. Bəzi ölkələr bununla bağlı xüsusi subsidiyalar tətbiq edir, bəziləri vergiləri azaldır, digərləri isə məcburi direktivlər qəbul edir və bu gün bioyanacaq istehsalı bahalı bir işdir, hətta ənənəvi neft məhsullarından da bahadır [7 s.53]. Ümumiyyətlə, neft emalı müəssisələri maye bioyanacaq istehsalını qlobal dəyər zəncirlərinə birləşdirə bilər. Onun istehsalı bir sıra ölkələrdə (Braziliya, ABŞ, Avropa İttifaqı ölkələri) dövlət dəstəyinə malikdir. Bu sahədə dünya bazarında rəqabət şəraitinin təmin edilməsində gömrük tarifi və vergi siyasəti tədbirlərinin tətbiqi ilə dövlətin stimullaşdırıcı rolu da mühüm rol oynayacaqdır. Beləliklə, son iki onillikdə dünya üzrə neft emalı sənayedə baş verən əsas dəyişikliklərə aşağıdakılar daxildir: Rusiya, Aİ, Asiya-Sakit okean ölkələrinin (ilk növbədə Çin, Cənubi Koreya və Hindistan) dünya neft emalındakı payının azalması və ekoloji tələblərin sərtləşdirilməsi səbəbindən bir çox zərərli neft emalı müəssisələrinin bağlanması (ABŞ və Aİ-də yeni kapital qoyuluşları yeni neft emalı müəssisələrinin səmərəli tikintisi üçün deyil, mövcud müəssisələrin ekoloji fəaliyyətinin yaxşılaşdırılmasına yönəlmiş ikinci dərəcəli proseslər üçün yönəldilir).

Neft emalı sənayesinin inkişaf etdirilməsi istiqamətində strateji yanaşmalar və prioritetlər

Dünya iqtisadiyyatının inkişafının müasir tendensiyaları ona gətirib çıxarır ki, dünya neft bazarının inkişafında mühüm amillərdən biri neftin kütləvi istehlakdan çıxarılmasıdır. Məlumdur ki, 2020-ci ilin birinci yarısında qlobal yanacağa tələbat koronavirus pandemiyası ilə əlaqədar xeyli azalıb və bu, neft emalı müəssisələrinin fəaliyyətinə təsir etməyə bilməzdi. Belə ki, 2020-ci ildə bütün ölkələr tərəfindən tətbiq edilən məhdudiyyətlər neft emalı məhsullarının, xüsusilə də aviasiya yanacağı, dizel yanacağı və benzin istehlakının görünməmiş azalmasına səbəb olub. Eyni zamanda, koronavirusun ikinci dalğası fonunda da əksər ölkələrdə neft emalı güclərinin stabil artımının bərpası müşahidə olunmayıb. 2020-ci ildə emal marjası mənfi olduğu halda, 2021-ci ilin ikinci yarısında artıq bu göstərici böhrandan əvvəlki səviyyəyə qayıtmağa başlamışdır. Ekspertlərin fikrincə, artıq 2023-cü ildə neftə tələbatın böhrandan əvvəlki səviyyəsinə çatmaq mümkündür. Bununla yanaşı, neft məhsullarına dünya tələbatının bərpasının müxtəlif proqnozlarına son dərəcə diqqətli

yanaşmaq lazımdır. Belə ki, karantin məhdudiyyətləri götürüldükdən sonra ictimai nəqliyyata nisbətən fərdi nəqliyyatdan istifadədə artım müşahidə olunacaq, bu da yanacağa tələbatın artmasına səbəb olacaq. Dünya neft emalının inkişafında aşağıdakı fundamental meyilləri qeyd etmək lazımdır:

- Dünya iqtisadiyyatının sənaye və enerji sektorlarında avtomobil yanacağı və neft-kimya məhsullarına tələbatın artması və eyni zamanda emal olunmuş məhsulların istehlakının azalması.
- Ehtiyatların tükənməsi və yeni yataqların işlənməsi zərurəti ilə əlaqədar neft hasilatının sürətinin azalması ilə bağlı olan təkrar neft emalı proseslərinin mövcud güclərinin təkmilləşdirilməsi və yenilərinin istismara verilməsi zərurəti.
- ABŞ və Aİ-də məhsulların ekoloji göstəricilərini yaxşılaşdırmaq üçün yeni, ikinci dərəcəli qurğuların tikintisinə yönəldilmiş əhəmiyyətli investisiya xərcləri tələb edən motor yanacaqlarının keyfiyyətinə ekoloji tələblərin sərtləşdirilməsi. Bu, bahalı, yüksək keyfiyyətli yüngül neft məhsullarından daha çox məhsul əldə etməyə imkan verir. Bu, xüsusilə katalitik krekinq, hidrokrekinq və yanacaqların hidroemalı kimi proseslərə aiddir.
- ABŞ avtomobil bazarında dizel yanacağının payının cüzi artımı ilə avtomobil benzini istehlakının üstünlük təşkil etməsi, Çin və Aİ-də isə dizel yanacağı istehlakının artması müşahidə olunur.
- Xam neftin emalı üzrə yeni güclərin işə salınması ilə müqayisədə neft emalı məhsullarının keyfiyyətinin yüksəldilməsi və emalı üçün yeni qurğuların qabaqcıl inkişaf etmiş ölkələrdə istifadəyə verilməsi.
- Asiya-Sakit okean ölkələri, Aİ və ABŞ tərəfindən neft-kimya məhsulları və motor yanacaqlarının istehsalı və idxalının artması.
- Az tullantılı texnologiyalarının tətbiqi əsasında ağır neft qalıqlarından yüksək keyfiyyətli motor yanacaqlarının istehsalının emal dərinliyinin artırılması.
- İstehsalın yenidən təchiz edilməsi, yüksək intensivlikli enerjiyə qənaət edən texnologiyaların, selektiv və aktiv katalizatorların işlənib hazırlanması, texnoloji sxemlərin təkmilləşdirilməsi əsasında neft emalı müəssisələrinin texnoloji təminatının səmərəliliyinin yüksəldilməsi [8].

Pandemiya səngiyənə qədər qlobal neft emalının inkişafı qeyri-müəyyənlik vəziyyətində olacaq və bu, neft məhsullarını idxal edən əsas ölkələr tərəfindən karantin məhdudiyyətlərinin müddətlərinin uzadılması ilə artacaq. Ümumilikdə qarşıdakı illərdə neft və neft məhsullarına qlobal tələbatın güclü olacağı gözlənilir. Lakin neft məhsullarından istifadənin səmərəliliyi artdıqca, alternativ yanacaq mənbələri və nəqliyyat vasitələri yarandıqca bu tendensiya uzunmüddətli olmayacaq. Nüfuzlu təşkilatların proqnozlarına görə, 2018-2035-ci illərdə Şimali Amerika və Avropada neft məhsullarına tələbatın orta illik 0,3% azalacağı gözlənilir ki, bu da xüsusilə avtomobil nəqliyyatının istismarı sektorunda özünü büruzə verəcəkdir. Eyni zamanda, Cənub-Şərqi Asiya ölkələrində bu göstəricinin ildə 2% artacağı gözlənilir [9, s.87]. Son onilliyin qlobal iqtisadiyyatında əsas tendensiyalardan biri olan rəqəmsallaşmanı nəzərə alsaq, bu aspekt əhəmiyyətli görünür. Obyektiv olaraq, rəqəmsallaşma kontekstində neft emalının transformasiyası təkcə sənayenin özünün modernləşdirilməsi kontekstində deyil, həm də beynəlxalq ticarətin inkişafı prizmasından keçir [10, s. 38]. Qeyd edək ki, pandemiya şəraitində neft emalı sahəsində rəqəmsallaşdırma alətlərinə tələbat ofis işlərinin uzaqdan idarə edilməsi hesabına artır. Neft laylarından neft hasilatını artırmaq üçün rəqəmsal texnologiyalardan istifadənin artırılması da vacibdir. Bu, neft emalı üçün yük bazasının artmasına kömək edəcək. Bundan əlavə, pandemiya zamanı sənayenin robotlaşdırılması xüsusilə aktual görünür. Çünki, istehsal müəssisələrində insanların sayının azalması yoluxma riskini azaldan amilə çevrilib. Xüsusilə, logistika proseslərində pilotsuz nəqliyyat vasitələrinin istifadəsinə tələbat artır. Neft emalı sənayesində süni intellektin istifadəsi onun ümumi

üstünlükləri ilə bağlıdır. Xüsusən də onun əsasında qlobal dəyər zəncirlərinin kanalları vasitəsilə istehsal və marketinqin əlaqəsini asanlaşdıran intellektual avtomatlaşdırmanın həyata keçirilməsi mümkündür. Neft-qaz sənayesində və neft məhsullarının istehsalında qlobal dəyər zəncirlərindən danışarkən, istehsalın milli sərhədlər daxilində lokallaşdırılması strategiyasını qeyd etmək lazımdır ki, bu strategiyadan şirkətlər tərəfindən istifadə oluna bilər. Şirkətlər artıq təchizat zəncirlərini dəyişdirərək komponentləri və materialları əvəz etmək variantlarını axtarırlar. Ona görə də digər sənaye sahələrində olduğu kimi, neft emalı sahəsində də yaxın illərdə beynəlxalq autsorsinq və ofşorinqdən istifadənin azalması ehtimalı görünür [9, s.87].

Nəticə

Neft email sənayesinin inkişafı üçün müəyyən məhdudiyyət onun yüksək konsolidasiya səviyyəsi, eləcə də neft emalının rəqabət və innovativ inkişafının müəyyən məhdudlaşdırıcısı kimi çıxış edən inhisarlaşma hesab edilə bilər. Azərbaycanda neft emalı üçün yüksək texnologiyalı sənaye avadanlığının idxalına idxal rüsumlarının ləğvi, sürətləndirilmiş amortizasiya siyasətinin tətbiqi, habelə bir sıra layihələrdə dövlətin hərtərəfli iştirakı mühüm inkişaf istiqamətlərindən ola bilər. Azərbaycanda neft emalı sənayesinin inkişafı dövlət tənzimlənməsinin effektivliyinin artırılmasını tələb edir. Bu baxımdan, uzunmüddətli perspektivdə Azərbaycanda neft emalının dövlət tənzimlənməsinin əsas istiqamətləri kimi bu aşağıdakıları zəruri hesab edirik: neft məhsullarının ixracı üçün gömrük rejiminin təkmilləşdirilməsi; istehsal olunan motor yanacaqlarının keyfiyyətinin yüksəldilməsi və yeni Avropa standartlarına yaxınlaşdırılması; ən son texnologiyaların tətbiqi əsasında emal dərinliyinin artırılması; yeni güclərin istismara verilməsinin yenilənməsi və mövcud texnoloji qurğuların dəyişdirilməsi müddətlərinin intensivləşdirilməsi. Ümumilikdə, gələcəkdə neft emalının inkişafını şərtləndirən əsas amillər təkcə Azərbaycanda deyil, inkişaf etməkdə olan ölkələrdə də emal məhsullarına tələbatın artması, minimal xərclərlə yeni emal güclərinin istifadəyə verilməsinin yüksək artım templəri, neft emalı müəssisələriin satınalmalar əsasında inteqrasiyasının dərinləşdirilməsi, kiçik və orta neft emalı müəssisələrinin innovativ məhsulların istehsalında cəmləşməsi və digərləridir.

Ədəbiyyat

1. Hacızadə, E.M. Neft-qaz sektorunun inkişafının iqtisadi artıma təsirinin qiymətləndirilməsi. Azərbaycanın vergi jurnalı, 2/2012, – s.49-86
2. World Energy Outlook – 2013. Краткий обзор на русском языке. – Париж: Международное энергетическое агентство, 2014. –с.6.
3. Exxon mobil 224 milyard zərərlə pandemiyanın ən çox təsir etdiyi neft-qaz sirkəti oldu. https://marja.az/73316/exxonmobil-224-milyard-zererle-pandemiyanin-en-cox-tesir-etdiyi-neft-qaz-sirketi-oldu.
4. Гаффарова, М.Р. Стратегия развития нефтехимической промышленности США: сравнение с Россией / М. Р. Гаффарова // Научный электронный журнал Меридиан. – 2020. № 3(37). – с. 567-569.
5. Агафонов, И.А. Тенденции развития предприятий нефтепереработки / И.А. Агафонов // Вестник Самарского государственного технического университета. Серия: Экономические науки. – 2014. № 2(12). – с. 39-46
6. Соломонов, А. П. Цикличность мировой экономики и ее воздействие на тенденции развития нефтеперерабатывающего комплекса / А.П. Соломонов // Вестник университета. – 2016. № 6. – с. 47-53.
7. Соломонов, А. П. Развитие мировой нефтепереработки под влиянием структурных изменений в топливно-энергетическом балансе / А.П. Соломонов // Вестник евразийской науки. – 2019. – Т. 11. № 6. – с. 53.

8. Соломонов, А.П. Основные региональные тенденции развития мировой нефтеперерабатывающей промышленности / А.П. Соломонов // Вестник университета. – 2014. № 21. – с. 53-56.
9. Соломонов, А.П. Развитие мировой нефтепереработки в контексте пандемии коронавируса / А. П. Соломонов // Вестник университета. – 2022. № 2. – с. 85-90.
10. Смирнов, Е.Н. Детерминанты развития международной торговли в условиях гиперглобализации и цифровизации // Российский внешнеэкономический вестник. – 2019. № 5. – с. 26-40.

Гулендам Шахиддин кызы Исмайилова
докторант Азербайджанского Государственного
Экономического Университета,
E-mail: ismayilovagulendam@gmail.com

Актуальные аспекты международного опыта в развитии нефтеперерабатывающей промышленности

Резюме

Целью исследования является рассмотрение актуальных аспектов и проблемных вопросов международного опыта в развитии нефтеперерабатывающей промышленности. Раскрыты существующие проблемы и рассмотрены важнейшие аспекты, которые создают предпосылки для интенсивного развития нефтеперерабатывающей промышленности в современных условиях. Приведены примеры различных стран мира, где более эффективно обеспечена организация и развитие нефтеперерабатывающей промышленности, способствующей динамичности национальной экономики. Отмечена необходимость глубокого изучения и рассмотрения важнейших вопросов и актуальных аспектов отдельных стран мира, которые продвинулись в прогрессивном контексте развития нефтеперерабатывающей промышленности и добились больших успехов. Подготовлен ряд предложений, которые могут быть полезными в организации эффективной деятельности нефтеперерабатывающей промышленности в Азербайджане. Методология исследования рассматривается путем применения традиционной формы экономических методов, таких как анализа, синтеза и обобщения опыта отдельных стран мира, в том числе процессы, которые происходят в сфере нефтеперерабатывающей промышленности в мире. Так же учтены отдельные положения и мнения, научные доводы различных учёных и исследователей, которые рассмотрели данные проблемы в своих научных трудах. Практическая значимость исследования объясняется эффективным использованием научных практичных результатов исследования в разработке и реализации более действенных мер интенсификации нефтеперерабатывающей промышленности в Азербайджане и созданием более конкурентоспособных нефтеперерабатывающих предприятий. Результаты исследования охватывают те вопросы, которые полезны в разработке и подготовке целевых программ, комплексных мероприятий, стратегий деятельности отдельных крупных нефтеперерабатывающих комплексов и предприятий в расширении деятельности и диверсификации структуры нефтеперерабатывающей сферы. Оригинальность исследования и научная новизна заключается в том, что в статье комплексно рассмотрены современные подходы в контексте новых вызовов постпандемического периода в более эффективной организации и развитии нефтеперерабатывающей сферы. В качестве главной научной новизны рассматривается обоснование необходимости расширения деятельности в данном направлении в Азербайджане с учётом выделения необходимых нефтяных сырьевых ресурсов, в том числе развития предпринимательства и улучшения бизнес-среды в данной сфере, обеспечения иностранных инвестиций в данном направлении, создания более конкурентоспособных предприятий, которые могли бы успешно выйти на региональный и мировой рынок. Кроме того, рассмотрены существующие возможности и перспективы развития нефтеперерабатывающей промышленности в Азербайджане с учётом

диверсификации национальной экономики и развития нефтяных секторов экономики страны в ближайшей перспективе.

Ключевые слова: *нефтеперерабатывающая промышленность, международный опыт, страны мира, актуальные аспекты, развитие нефтепереработки,перспективы развития нефтеперерабатывающей промышленности, эффективное использование мирового опыта в Азербайджане, опыт разных стран мира.*

Gulandam Shahiddin Ismayilova
Doctoral student of Azerbaijan
State University of Economics
E-mail: ismayilovagulendam@gmail.com

Current aspects of international experience in the development of the oil refining industry

Summary

Purpose of the research is to consider current aspects and problematic issues of international experience in the development of the oil refining industry. The existing problems are disclosed and the most important aspects are considered, which create the prerequisites for the intensive development of the oil refining industry in modern conditions. Examples are given of various countries of the world where the organization and development of the oil refining industry, which contributes to the dynamism of the national economy, is more effectively ensured. The need for depth study and consideration of the most important issues and relevant aspects of individual countries of the world, which have advanced in the progressive context of the development of the oil refining industry and have achieved great success, is noted. A number of proposals have been prepared that can be useful in organizing the effective activities of the oil refining industry in Azerbaijan. Research methodology is considered through the application of a traditional form of economic methods, such as the analysis, synthesis and generalization of the experience of individual countries of the world, including processes that occur in the field of the oil refining industry in the world. Separate provisions and opinions, scientific arguments of various scientists and researchers who considered these problems in their scientific works are also taken into account. The practical importance of a research is explained by the effective use of scientific practical research results in the development and implementation of more effective measures to intensify the oil refining industry in Azerbaijan and the creation of more competitive oil refining enterprises. Research results cover those issues that are useful in the development and preparation of targeted programs, integrated activities, and strategies for the activities of individual large oil refineries and enterprises in expanding the activities and diversifying the structure of the oil refining sector. Originality and scientific novelty of the research lies in the fact that the article comprehensively considers modern approaches in the context of new challenges of the post-pandemic period in a more efficient organization and development of the oil refining sphere. The main scientific novelty is the justification of the need to expand activities in this direction in Azerbaijan, taking into account the allocation of the necessary oil raw materials, including the development of entrepreneurship and improving the business environment in this area, ensuring foreign investment in this direction, creating more competitive enterprises that could successfully enter the regional and world market. In addition, the existing opportunities and prospects for the development of the oil refining industry in Azerbaijan are considered, taking into account the diversification of the national economy and the development of the oil sectors of the country's economy in the near future.

Key words: *oil refining industry, international experience, countries of the world, actual aspects, development of oil refining, prospects for development of oil refining industry, effective use of world experience in Azerbaijan, experience of different countries of the world.*

Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov
Daxil olub: 14.11.2022.
Çapa qəbul olunub: 24.11.2022.